UOT 069

**Leyla Qədir qızı Məcidova**
**Lənkəran Dövlət Universiteti**
**tarix üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: kameliya76@mail.ru**

# MUZEYLƏRİN İNKİŞAF STRATEGİYASINDA MUZEY BİNALARININ ROLU

**Xülasə:** Məqalədə muzey binasının muzey fəaliyyətində rolu təhlil edilir. Xüsusilə, muzey memarlığında mövcud tendensiyalar, yeni muzey modelləri nəzərdən keçirilir və onların muzey işinin inkişafına təsiri vurğulanır.
**Açar sözlər:**muzey, muzey binası, muzey memarlığı, ziyarətçi, S.Quqqenhaym

XX əsrin II yarısı, XXI əsrin başlanğıcında muzeylərin sosial-mədəni rolu həm elmdə, həm də ictimai təfəkkürdə əhəmiyyətli dərəcədə dəyələndirilməyə başladı. Bu prosesdə muzey binalarının memarlıq xüsusiyyətləri də özünəməxsus yer tutur. Bu müstəsnalıq muzey memarlığının ayrıca bir istiqamət kimi formalaşmasına təkan verdi. Muzey memarlığının inkişaf tarixi ərzində muzey binalarının siması muzey institutunun dərki ilə bağlı konsepsiya və yanaşmalardan asılı olmuşdur. Xüsusi olaraq muzey tələblərinə görə layihələndirilən binaların XIX əsrin axırlarında tikilməyə başlaması XX əsrin ortalarında ümumi memarlıq üslubları nəzəriyyəsi kontekstində muzey memarlığının üslub, meyar, istiqamətlər üzrə tipologiyasının yarandığı fikrini söyləməyə imkan verir. Yeni üslub və istiqamətlər muzeyləri, təkcə keçmişi qorumağa yönələn institut deyil, aktual informasiya, fəal kommunikasiya mərkəzləri kimi təqdim etməyə başladı. Bu dəyişikliklərin nəticəsi olaraq muzey fəaliyyətinin, bütövlükdə muzey məkanının yeni formalarda təşkili tələbatı ortalığa çıxdı. Bundan çıxış edərək muzey memarlığı mühüm əhəmiyyət kəsb etməyə başladı. Rekreasiya və asudə vaxt zonalarının təşkili ilə yanaşı, məkan muzeyin aşağıdakı bütün funksiyalarının vəhdətini ifadə etməli idi. Bu vəhdət:

- mədəniyyət əşyası ilə insan, əşya ilə qoruyuculuq vəzifəsini icra edən şəxslə, muzey ilə ziyarətçi arasında təzahür tapmalı idi;
- muzeyin əsas fəaliyyəti öz ifadəsini daimi ekspozisiya və müvəqqəti sərgi zalları, tədbirlər üçün otaqlar, məşğələ kabinetləri, kinozallar, konfrans-zallarda tapır. Fond saxlanclarına xüsusi tələb artırıldı. Kolleksiyaların qorunması və prezentasiyası üçün tələb olunan işıqlandırma, mikroiqlim texniki, mühəndis-konstruktiv xarakteristika, təhlükəsizlik sisteminin yaradılması vacib sayıldı;

- ziyarətçilərin qəbulu üzrə fəaliyyət yeni otaq tiplərinin – informasiya xidməti, məsləhətlər, görüş yerləri, kafe, restoran, istirahət yerləri, uşaq mərkzləri və s. yaradılmasına kömək etdi;
- təsərrüfat fəaliyyəti də eksponatların qablaşdırılması və qorunması, ekspozisiya və sərgilərin təşkili üzrə laboratoriya və bərpa emalatxanalarının materialları üçün xüsusi məkanların olmasını tələb edirdi.

Binaların yeni strukturu ziyarətçilər, əməkdaşlar, köməkçi xidməti otaqları əhatə edən zonalar üzrə məkanların dəqiq təşkili ilə bağlı idi. Muzey memarlığı- nın əsasını açıqlıq, mədəni irsin əlçatarlığı prinsiplərini təmsil edən yeni muzeoloji konsepsiya təşkil etdi. "Bununla bağlı müasir muzey binalarının arxitektonikası, quruluş və konstruksiyasını əks etdirən konsepsiyalar diqqəti cəlb edir" [ 1, s.27]. Bu konsepsiyaların mahiyyətini təşkil edən keyfiyyətcə yeni yanaşmalar müasir tarixin informasiya texnologiyalarına istinad edir.

Muzeylərin missiyaları haqqındakı təsəvvürlərin dəyişkənliyi öz təzahürünü hər şeydən əvvəl, eksteryer səviyyəsində tapdı, çünki binanın zahiri siması yeni obrazda olmalı idi. Bundan irəli gələrək memarlıq formasına diqqət gücləndirildi: yeni forma qorunan sərvətlərin dəyəri haqqındakı təsəvvürləri simvolik şəkil- də təcəssüm etdirməli idi. Bundan əlavə, memarlıq ziyarətçilərlə ünsiyyət alətinə çevrilməklə hissi-emosional qavrayışı gücləndirməli idi. Muzey məkanının insanın hissi həyəcanlanmasına təsiri amilini qabardan müasir memarlar yeni binaların layihələndirilməsində, məhz bu cəhətə üstünlük verdilər. Hər şeydən əvvəl, binanın bədii obrazı önə çıxarıldı. Yeni obraz ətraf mühitdə muzeyin xüsusi aləmini səciyyələndirən təkrarolunmaz məkan yaratmalı idi. Memarlıq maraq obyektinə çevrilərək attraktivlik və assosiativlik xassələrinə xas olan muzey eksponatının xüsusiyyətlərini əldə etdi. Muzey binası ziyarətin cəlbetmə motivinə çevrildi. Muzey binasının layihələndirilməsinə yalnız memarlıq vəzifəsi kimi yanaşılması fikri qəbuledilməz sayıldı. Bunun üçün muzeyin bütün fəaliyyət sahələri ilə, ilk növbədə, ekspozisiya ilə qarşılıqlı vəhdəti lazım idi. Binaya muzey konsepsiyasının elementi kimi yanaşıldı. XX əsrin sonlarına doğru muzey binalarının layihələndirilməsi məsələsində müasir muzeylərin mürəkkəb çoxfunksiyalı orqanizm olması haqqındakı postulat aparıcı yer tutdu. Uğurlu layihələndirməni üç komponentin vəhdəti nəticəsində mümkünlüyünə diqqət yetirildi:

- elmi əməkdaşların səyi ilə muzey fəaliyyətinin funksional proqramı və ekspozisiyanın elmi konsepsiyasının layihələndirilməsi;
- memarların səyi ilə məkan-planlaşdırma və funksional-texnoloji həllin layihələndirilməsi;
- dizaynerlərin səyi ilə ekspozisiyanın obrazlı layihələndirilməsi.

XX əsrin muzey memarlığının manifestini 1967-ci ildə bir qrup fransız memarları (J.Quez, D.Darbua, A.Veysmel) tərəfindən irəli sürülmüş “Mobil muzey” layihəsini hesab etmək olar. Lakin bu hadisədən əvvəl də dünyada yeni muzey layihələri gerçəkləşdirilməkdə idi. İsveçrə əsilli Fransa memarı Le Korbüzyenin ötən əsrin 20-50-ci illərində müəllifi olduğu bir sıra sərgi və muzey binaları dünya memarlığına yeni muzey modelləri kimi təqdim edilmişdir: Ümumdünya Sərgisi üçün Parisdə inşa etdiyi “ESPRİ NUVO” pavilyonu (1925), Əhmədabaddakı (Hindistan) muzey (1951-1957), Çandiqarxdakı (Hindistan) muzey və qalereya (1951-1957) Syürixdəki Heydi Veber (1963-1967) pavilyonu yeni memarlıq ruhu və bədii obrazda tikilmiş muzey binaları idi. Artıq muzey memarlığında açılan yeni cığır bu istiqamətdə yeni layihələrin yaranmasına təsir göstərməyə başladı. Yuxarıda adları qeyd olunan fransız memarlarının da yeni layihəsi tikilini dövri sərgilərin təşkili üçün nəzərdə tuturdu. Layihə müəllifləri muzeyin yeni memarlıq modelini saxlanc yeri kimi deyil, təmasların, yaradıcı fəaliyyət məkanı kimi qabartdılar. Bu layihə binanın nə xarici, nə də daxili görünüşünü əvvəlcədən müəyyənləşdirmir, tikilinin xarakter və xüsusiyyətlərinə uyğun şəkildə, müvafiq həcmli-məkan quruluşu, işıqlandırma, ritmə nail olmaqla hər ekspozisiyanın sərbəst şəkildə təşkilinə imkan yaradır. Layihənin məğzində “idarəolunan məkanın təbii və süni işıqla idarə edilməsi” prinsipi dururdu [4, s.51].

“Mobil muzey” yuxarı texniki mərtəbə və aralıq dayaqlarından azad olan yer səviyyəsindəki meydança arasında formalaşır. Məkanın təşkili kub modulu əsasında həyata keçirilir. Tikili bütövlükdə zavodda istehsal olunan yığma elementlərdən – polad profillərdən, konstruksiyaları daşıyan borulardan, divarlar və tavan elementləri üçün nəzərdə tutulan şəffaf sintetik panellərdən quraşdırılır. Döşəmə meydançaları, şəffaf gümbəzli kvadrat tavan elementləri və bunlara quraşdırılmış işıq və havalandırma kompleks sistemləri, şəffaf və qeyri-şəffaf arakəsmələr lazım olan yerə qaldırılır və özülün səyyar şaquli elementlərinə bərkidilir. İlin fəsilləri, hava və ekspozisiyanın xarakterindən asılı olaraq bina tam və qismən açıla bilər.

Bu tip muzeylər üçün səciyyəvi sayılan lakoniklik Mis van der Roenin layihələrində özünü daha qabarıq formada əks etdirir. Onun 1942-ci ildə kiçik bir şəhər üçün hazırladığı layihədə məkanın açıq universal məkan otağın hər hansı bir görüntüsünü əvəz etdi: divarlar sərbəst şəkildə şüşə qutunun içərisində yerləşdirildi. Onun Berlinin Yeni Milli qalereyasının 1968-ci ildə sona yetirilmiş konstruksiyası, məhz bu prinsip əsasında quraşdırılmışdır. Kvadrat formasındakı şüşə zal qranit özül üzərində yerləşdirilmişdir. Məkanın tamamilə açıqlığı yaşıl mərmərlə üzlənmiş iki sütunla qabardılır. Muzeyin özü şüşə qalereyada yerləşir və bir-birinin içinə keçən otaqlar heykəlləri yerləşən bağçaya tərəf açılır. Muzey memarlığındakı bu

yenilik birmənalı qarşılanmırdı, bəzi tədqiqatçılar bu cür muzey məkanının həbsxana, kilsə ilə oxşarlığını qabardırdılar [2].

Ötən əsrin 70-ci illərindən başlayaraq incəsənətin vizual kontekstini qaytarılmasına çağırış edən, incəsənət və memarlıq arasında dinamik qarşılıqlı əlaqə yaradan, bundan çıxış edərək muzey kolleksiyalarının nümayişi üçün zəruri hesab edilən məkanın "sakrallığını" saxlamaqla muzey sərhədlərini daha demokratik edən yeni layihələr meydana çıxmağa başladı. Belə cəhdlərdən biri 1991-1995-ci illərdə R. Meyerin Barselonanın kvartallarının birində yerləşən Müasir İncəsənət Muzeyinin inşası oldu. Sanki bloklardan yığılmış bina tipik kvartal tikililərini tamamlamaqla ağ rəng, parlaqlıq və formaların kəskinliyi sayəsində təzad yaradır ki, bu da muzey binasının attraktivliyinin zənginləşdirilməsinə xidmət edir.

XXI əsrdə layihələndirmə metodikası muzeylərin turist mərkəzləri, elmi və mədəni irsin təqdimi, təhsil, maarifləndirmə və asudə vaxt yerləri kimi funksiyalarının inkişafı ilə əlaqədar mürəkkəb səciyyə kəsb etdi. İndi memarlar qarşısında təkcə muzey kolleksiyalarının qorunması və nümayişi üçün binanın tikilməsi deyil, həm də ətraf infrastrukturun, nümayiş meydançalarının genişləndirilməsi və ekspozisiyaların yeniləndirilməsi vəzifəsi durdu. Yeni tipli muzey təhsil strukturları, diskussiya meydançaları, müxtəlif emalatxanalar arasında çoxsaylı kommunikasiya əlaqələrini quran interaktiv məkandır. Beləliklə, XXI əsr muzeylərin qarşısında duran daxili və xarici vəzifələr onun məkanının genişləndirilməsini, şəhər və regional mühitə inteqrasiyasını, təkrarolunmaz obrazının yaradılmasını tələb edir. Tarixi dövrün tələblərindən doğan bu vəziyyət muzey memarlığında sözün əsl mənasında bir canlanma yaratdı. Yuxarıda qeyd etdiyimiz kimi, müasir muzeylərin üzərinə düşən turizm obyekti missiyası binaların şəhərsalmanın tərkibində xüsusi əhəmiyyət kəsb etməsinə, hətta regionun iqtisadiyyatına təsirini göstərirdi. Belə vəziyyətdə memarlıq çox vaxt muzey kolleksiyalarına üstün gələrək binanın özü dəyərli incəsənət əsəri qismində çıxış edir. Belə formanın bariz nümunəsini Bilbaodakı (İspaniya) Quqqenheym (Solomon Quqqenhaym muzey mesenatıdır, dünyanın bir neçə məşhur muzeyi onun adı ilə bağlıdır) muzeyi nümunəsində görmək olar. Bu heyrətamiz Müasir İncəsənət muzeyi müvəqqəti sərgilərin təşkili məqsədilə inşa edilmişdir. Muzey binasının memarı Frenk Qeri mərkəzi Bilbao şəhəri olan regionun "tam həyat"ının özünə qaytarılması vəzifəsini qarşısına qoyduğundan nəticədə dekonstruktizm üslubunda dünyanın ən möhtəşəm binası tikildi. Muzey həqiqətən də, turizmin inkişafına əhəmiyyətli şəkildə təsir göstərdi: hər il muzeyi 1,5 milyon turist ziyarət edir ki, bu da nəinki şəhərin, bütövlükdə regionun iqtisadi durumunu yüksəltdi. Memar qarşısına qoyduğu məqsədə nail oldu. İqtisadiyyatda nail olunan uğur tarixə "Bilbao effekti" kimi düşdü.

Hazırda muzey memarlığının sürətlə inkişaf etdiyi fikrini söyləmək olar. Memarlığın bu istiqamətində özünü doğrultmuş dünya şöhrətli sənətkarlarından Tadao Ando, Kulapat Yantrasast, Frenk Qeri, Penso Pyano, Daniel Libeskind, Jan Nuvel, Devid Çillerfild, Zaha Hadid, Qae Aulentinin adlarını çəkmək olar. "Son tarixi dövrün ən maraqlı muzeylərinə Mexikodakı Milli antropologiya muzeyini (memar R.Vaskes), Amsterdamdakı Vinset Van Qoq Dövlət muzeyi (memar Q.Ritveld), Vaşinqtonun Milli Qalereyasının şərq korpusu (memar İ.Rey), Nyu-Yorkdakı Quqqenhaym muzeyi və digərlərinin adlarını çəkmək olar" [ 1, s.27].

Dünya muzeyləri ilə müqayisədə daha gənc – 100 illik tarixə malik olan Azərbaycan muzeyləri içərisində müasir muzey memarlığı üslublarında tikilən binalardan görkəmli memar Zaha Hadidin müəllifi olduğu Heydər Əliyev Mərkəzi, tanınmış avstriyalı memar Frans Yantsın tikdiyi Milli Xalça muzeyi öz unikal bədii-estetik obrazı ilə, həm də Bakı şəhərinin bugünkü memarlıq simasının dəyərlərindəndir.

**Ədəbiyyat siyahısı:**

1. Eyvazova Y. Muzey ekspozisiyası. Dərslik. Bakı, 2018. 320 s.
2. Сурикова К. В. Форма и функция в музейной архитектуре XX века. Вестник СПбГУ. Сер. 17. 2015. Вып 2.
3. Ионина Н. А. Сто великих музеев мира. М.: Вече, 2000. 511 с.
4. Матвеева Н. Художественные музеи. Тенденции 60-х годов в зарубежном строительстве: обзор. М.: Центр науч.-техн. информации по граждан. строительству и архитектуре, (серия «Общественные здания»)., 1972. 70 с.

**Лейла Кадыр кызы Маджидова**

## РОЛЬ МУЗЕЙНЫХ ЗДАНИЙ В СТРАТЕГИИ РАЗВИТИЯ МУЗЕЕВ

**Резюме:** В статье анализируется роль музейного здания в музейной деятельности. В частности, рассматриваются современные тенденции в музейной архитектуре, новые музейные модели и выделяется их влияние на развитие музейного дела.

**Ключевые слова:** музей, здания музея, музейуая архитектура, посетитель, С.Гуггенхайм

**Leyla Qadir gizi Majidova**
**THE ROLE OF MUSEUM BUILDINGS IN THE DEVELOPMENT STRATEGY OF MUSEUMS**

**Summary:** The article analyzes the role of the museum building in museumactivity. In particular, modern trends in museum architecture and new museum models are reviewed, and their impact on the development of museum work is emphasized.

**Key words:** museum, museum building, museum architecture, visitor, S. Guggenheim

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04. 11. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**